Türkiyənin Trabzon şəhərində keçirilən bələdiyyə seçkilərindən sonra bölgə CHP-çiləri kütləvi şəkildə istefa verib.

"Axar.az" xəbər verir ki, CHP daxilində partiya əleyhinə qərarların verilməsi, seçkilərdə partiya namizədlərinə səs verilməməsi üçün əlindən gələni edənləri səbəb göstərən Trabzon CHP-çiləri kütləvi şəkildə istefa veriblər.

Qeyd edək ki, Trabzonun Vakfıkəbir ilçəsinin rəhbəri 50 ildir bu bölgədə seçkilərə namizəd çıxara bilmirdi.

CHP-nin problemlərinin çox olduğuna diqqət çəkən Kəskin mövcud partiya üzvlərinin üzvlükdən çıxarılaraq yeniləri ilə əvəzlənməsinin lazım olduğunu bildirib.